# Görkəmli alim-pedaqoq, nəcib insan



Azərbaycan Tibb Universitetinin Tibbi biologiya və genetika kafedrasının dosenti, biologiya elmləri üzrə fəlsəfə doktoru Əminova Mənzər Şirməmməd qızının bu günlərdə 80 yaşı tamam olur. Mənzər Əminova 1937-ci il oktyabr ayının 20-də Azərbaycanın füsunkar yerlərindən olan Qazax şəhərində ziyalı ailəsində doğulmuşdur. Orta məktəbi doğma yurdunda bitirdikdən sonra Azərbaycan Dövlət Universitetində təhsil almış, bu bilik ocağını fərqlənmə diplomu ilə bitirmişdir.

Mənzər Əminova şərəfli bir ömür yolu keçmişdir. O, Azərbaycan xanımına xas olan bütün keyfiyyətləri özündə təcəssüm etdirir, uzun illər qazandığı bilik və təcrübəsini gənc nəslə verməkdən nəinki yorulmur, hətta bundan xüsusi zövq alır. Mənzər xanım 1963-cü ildə Universiteti bitirdikdən sonra Sankt-Peterburq şəhərində aspirantura təhsili alır. Aspiranturanı bitirdikdən sonra AMEA-nın Genetika və Seleksiya İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışıb. 1970-ci ildə prof. İ.D.Romanovun rəhbərliyi altında biologiya elmləri namizədi dissertasiyasını yerinə yetirərək müvəffəqiyyətlə müdafiə etmişdir. Mənzər Əminovanın elmi və pedaqoji fəaliyyəti Azərbaycan Tibb Universiteti ilə bağlı olmuşdur. 1970-ci ildə ATU-nun Histologiya, sitologiya və embriologiya kafedrasında müsabiqə yolu ilə assistent vəzifəsinə seçilmişdir. Qısa müddətə o Baş müəllim (1972), daha sonra isə dosent (1984) vəzifəsinə seçilmişdir. Mənzər xanım mütəmadi olaraq Sovetlər Birliyinin müxtəlif şəhərlərində keçirilən ixtisasartırma kurslarını bitirmişdir. 1989-cu ildən isə Tibb Universitetinin Tibbi biologiya və genetika kafedrasına dosent keçirilmişdir. Artıq 28 ildən çoxdur ki, Mənzər xanım Tibbi biologiya və genetika kafedrasında çalışır və bu gün də işini müvəffəqiyyətlə davam etdirməkdədir. Mənzər Əminovanın kollektivdəki nüfuzunu, ədalətli, məsuliyyətli və çalışqan olmasını və işgüzarlığını nəzərə alaraq onu 1994-cü ildə yeni yaradılan Tibbi biologiya fakültəsinə dekan vəzifəsinə seçirlər. Bu vəzifədə işlədiyi müddətdə yüzlərlə tələbəyə mənəvi yardım göstərmiş, onları düzgün istiqamətə yönəltmiş, bir həkim-şəxsiyyət kimi yetişməsində böyük zəhməti olmuşdur. Dosent Mənzər Əminova prinsipial olmaqla yanaşı obyektiv və ədalətli pedaqoqdur, ona tapşırılan bütün işlərə son dərəcədə məsuliyyətlə yanaşır və yüksək səviyyədə yerinə yetirir. Daim öz üzərində çalışır, elmi yenilikləri müntəzəm izləyir, öyrəndiklərini iş yoldaşlarına və tələbələrə həvəslə çatdırır. Mənzər xanım kafedranın maddi-texniki bazasının zənginləşməsinə, yeni-yeni dərslik və dərs vəsaitlərinin nəşr olunmasına, kafedranın iş planının və tədris proqramının hazırlanmasında fəal iştirak edir.

Mənzər xanım birinci kurs tələbələrinə qarşı yüksək səviyyədə tələbkar olması ilə yanaşı həm də qayğıkeşliklə yanaşır, onların bilikli, elmli olmasına çalışır. Onun dərs dediyi tələbələr Universiteti bitirdikdən sonra da onu unutmurlar, görüşünə gəlirlər, dəyərli məsləhətlərindən bəhrələnirlər. Tələbələrin elmi-tədqiqat işlərinə cəlb olunmasında və gənc alimlərin yetişməsində xüsusi xidmətləri var. Kafedrada dərslik və dərs vəsaitlərinin yüksək səviyyədə hazırlanmasında, nəşr olunmasında əməyi çoxdur, əsasən də uzun illər tələbələrin böyük həvəslə istifadə etdiyi “Tibbi biologiya və genetikadan praktiki məşğələ albomu” dərs vəsaitinin yeni proqram üzrə tərtib olunmasında onun həmmüəllif kimi zəhmətini qeyd etməliyik. Dosent Mənzər Əminova çoxsaylı elmi əsərlərin müəllifidir. O, gözəl ziyalıdır, səbirli və təmkinli olmasına, nümunəvi davranışına görə kafedrada gənclərə örnəkdir. Tale bu gözəl insana ağlı-qaralı günlər bəxş edib, lakin həyatın bütün sınaqlarından üzüağ çıxıb, zaman-zaman qarşısına çıxan çətinlikləri mərdliklə dəf edib.

Mənzər xanımın ictimai-siyasi fəaliyyəti də təqdirəlayiqdir. O hələ 2002-ci ildə keçirilmiş ictimai-kütləvi sorğuya əsasən “Azərbaycanın tanınmış xanımları” Beynəlxalq Layihənin qaliblərindən biri olmuşdur. Dosent Mənzər xanımı kollektivə sevdirən aşağıdakı keyfiyyətləridir: həddindən artıq təvazökardır, qayğıkeşdir, insanpərvərdir. Bir pedaqoq kimi yüksək peşəkarlığa, səmərəli və məhsuldar fəaliyyəti ilə böyük nüfuza malikdir.

Mənzər xanım vətən naminə xeyli işlər görmüş, xalqımızın sağlamlığı keşiyində duran minlərlə yüksək ixtisaslı həkim hazırlamışdır. Çevrəsində olan bütün insanlar onu sevir, şəxsiyyətinə hörmət edirlər.

Biz də bu xoş və əlamətdar gündə Mənzər xanım Əminovaya Tanrıdan cansağlığı, xoş günlər arzulayırıq.

**Canbaxış NƏCƏFOV,**
**Azərbaycan Tibb Universitetinin Tibbi biologiya və genetika kafedrasının müdiri, biologiya elmləri doktoru, professor.**